**Respublika.- 2022.- 9 iyul. S. 1;8.**

# XALQIMIZIN QÜRURU, DÜŞMƏNİN QƏNİMİ müzəffər xüsusi təyinatlılar və komandolar

***İkinci Dünya müharibəsindən sonra aparılan tədqiqatlar həm çətin relyef və iqlim şəraitində, həm də düşmən müdafiəsinin operativ dərinliyində əməliyyatlar həyata keçirə bilən, yüksək hazırlıqlı və çevik qoşunların yaradılmasına ehtiyac duyulduğunu ortaya çıxardı. Bu məqsədlə yaradılan və elit ordu hissələrinə aid edilən xüsusi təyinatlılar demək olar ki, bütün müasir ölkələrin ən etibarlı "vuran qoludur". Azərbaycanda xüsusi təyinatlı hissələrin yaradılmasına 1994-cü ildə Ermənistan ilə Azərbaycan arasında atəşkəs imzalandıqdan sonra ulu öndər Heydər Əliyevin tapşırığı ilə başlandı. Azərbaycanın istənilən şəraitdə, hətta cəbhə xəttinin bir neçə yüz kilometr dərinliyində döyüş və diversiya əməliyyatları apara bilən hərbi qüvvələri artıq mövcuddur. Yarandığı gündən xüsusi təyinatlılarımız çoxsaylı uğurlu əməliyyatları ilə adını dünya hərb tarixinə yazdırıb. Xüsusi Təyinatlı Qüvvələrimizin həyata keçirdiyi uğurlu əməliyyatların sayı kifayət qədərdir.***

1999-cu ilin aprelində isə Baş Qərargaha tabe olan əlahiddə xüsusi təyinatlı taborların bazasında Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələri (XTQ) yaradıldı. XTQ-nin formalaşmasında mövcud olan əlahiddə taborların və Birinci Qarabağ müharibəsi iştirakçısı olan zabit və gizirlərdən geniş istifadə olundu. 29 aprel 2015-ci il tarixində qurulmasının 16-cı ildönümü münasibətilə yeni yaradılan xüsusi təyinatlı hissələrə döyüş bayraqlarının təqdimetmə mərasimi keçirildi. 20 iyun 2020-ci ildə XTQ-nin tərkibinin genişləndirildiyi məlum oldu. XTQ yaranan zamanda bəlkə də çoxlarımızın ağlına belə gəlməzdi ki, 44 günlük Vətən müharibəsinin ən önəmli qələbələrini məhz elə bu qüvvələr reallaşdıracaq. 2020-ci ildən Azərbaycan ərazisində bir sıra genişmiqyaslı taktiki Azərbaycan-Türkiyə birgə təlimləri keçirildi. Təlimlər müharibədən sonra daha da intensivliyi ilə seçilir.

Artıq qeyd etdiyimiz kimi, İkinci Qarabağ müharibəsi zamanı Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyəti bir çox uğurlu əməliyyatlar ilə işğal altında olan ərazilərin azad edilməsində mühüm rol oynadı. Azərbaycan Silahlı Qüvvələrinin Cəbrayıl, Hadrut və Şuşanı işğaldan azad etməsi də XTQ-yə aid əməliyyatlardır. Ümumiyyətlə, Vətən müharibəsində XTQ həlledici faktorlardan biri oldu.

Müharibədəki taktiki qələbələrin bir çoxu Xüsusi Təyinatlı Qüvvələrin düşmən müdafiəsinin dərinliyində həyata keçirdiyi fəaliyyətlər nəticəsində mümkün oldu. Vətən müharibəsində 7 müxtəlif güc strukturunun xüsusi təyinatlıları iştirak etdilər. Bu müharibə yaddaşlarda kütləvi şəkildə XTQ və PUA tətbiqi ilə yadda qalacaq. XTQ Vətən müharibəsində göstərdiyi qəhrəmanlıq ilə adını Azərbaycan hərb tarixinə qızıl hərflərlə yazdırdı. Ümumiyyətlə, Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin formalaşmasında Türkiyə Silahlı Qüvvələrinin Xüsusi Təyinatlı Qüvvələri xüsusi rol oynayıb. Türkiyədə "Bordo bereli", "SAT/SAS", ABŞ-da "Reyncer", "Delta force", Rusiyada "Alfa", "Vımpel", "Delta", İsraildə "Amor", Böyük Britaniyada "Kommandos", "Skorpion", Finlandiyada "Yeger", Gürcüstanda Xüsusi Əməliyyatlar Qrupu (Group "A"), Azərbaycanda "Yarasa", "Qartal", "Şahin", "Vaşaq", "Əqrəb" və s. şərti adlarla tanınan xüsusi təyinatlı dəstələr mövcuddur. Azərbaycan XTQ-si öz fəaliyyətində bir çox ölkələrin təcrübəsindən istifadə edir.

**(davamı 8-ci səhifədə)**

